# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 390** **Bakı şəhəri, 15 dekabr 2021-ci il**

***"İri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarında dəyişiklik edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 30 dekabr tarixli 534 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 12, maddə 2249; 2017, № 7, maddə 1497; 2018, № 1, maddə 124, № 7 (II kitab), maddə 1621, № 12 (II kitab), maddə 2757; 2019, № 3, maddə 553) ilə təsdiq edilmiş "Gəlirlər və xərclər smetaları hazırlanmalı, təsdiq edilməli və icrası üzrə monitorinq aparılmalı olan iri dövlət şirkətlərinin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci, 3-cü, 4-cü, 7-ci, 8-ci və 10-1-ci hissələr ləğv edilsin.

2. 11-ci hissə üzrə:

2.1. "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin" sözləri "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin" sözləri ilə əvəz edilsin;

2.2. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti," sözləri "Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos)," sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***